Jül Vern

# DƏNİZ ALTINDA İYİRMİ MİN LYÖ

Tərcümə edənlər:
M.S.Təhmasib (I hissə)
M.Mustafayev (II hissə)

qanun nəşriyyatı

Jules Verne

# TWENTY THOUSAND LEAGUES UNDER THE SEA

Jules Verne-in "Dəniz altında iyirmi min lyö" əsəri, fantastik macəraları və dərin elmi təsvirləri ilə ədəbiyyatın ən sevilən klassiklərindən biridir. 1860-cı illərin ortalarında yazılmış bu hekayə, dənizlərin sirli dünyasına, texnoloji yeniliklərə və insan iradəsinin gücünə olan bənzərsiz bir baxışı təqdim edir.

Romanın nüvəsində, tədqiqatçı professor Aronaks, onun köməkçisi Conseil və kanadalı balıqçı Ned Land dayanır. Bu üç şəxs, dənizdə bir neçə gəmi tərəfindən göründüyü iddia edilən qəribə bir məxluqu araşdırarkən, Nautilus adlı fantastik bir sualtı gəmidə kapitan Nemo tərəfindən əsir götürülürlər. Kapitan Nemo və Nautilus vasitəsilə, oxucular dənizlərin bilinməyən və heyrətamiz dünyasını kəşf edir, qəribə canlılarla qarşılaşır və möhtəşəm sualtı mənzərələrlə tanış olurlar.

Vern, bu əsərdə dənizlərin zəngin ekosistemini, texnoloji kəşfləri və insan iradəsinin təəccübləndirici sərhədlərini təsvir edir. Hekayə boyu elm, macəra və bəzən də fəlsəfi düşüncələr birləşərək oxuculara həm təsirli, həm də düşündürücü bir təcrübə təqdim edir.

"Dəniz altında iyirmi min lyö", yalnız macəra axtarışında olanlar üçün deyil, həm də elm və texnologiyanın bəşəriyyətin sərhədlərini necə genişləndirdiyini görmək istəyənlər üçün mütləq oxunmalı bir əsərdir.

* lyö – 5,5 km (qədim fransız dəniz uzunluq vahidi)

**Jules Verne TWENTY THOUSAND LEAGUES UNDER THE SEA**
**Jül Vern DƏNİZ ALTINDA İYİRMİ MİN LYÖ**
Bakı, Qanun Nəşriyyatı, 2025, 552 səh.

Janr: qorxu ədəbiyyatı, roman
Yaş qrupu: 12+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 04.12.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcümə edənlər: | M.S.Təhmasib (I hissə) |
| | M.Mustafayev (II hissə) |
| Rəssam: | De Nevil və Riunundur |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-305-8

© Qanun Nəşriyyatı, 2018; 2025
© "UŞAQ VƏ GƏNCLƏR ƏDƏBİYYATI" nəşriyyatı, 1948
© Jules Verne, 1872

# BİRİNCİ HİSSƏ

*Birinci fəsil*

## HƏRƏKƏT EDƏN SUALTI QAYA

1866-cı il, ehtimal ki, hələ də bu günə qədər bir çoxları tərəfindən unudulmamış xariqüladə hadisələrlə şöhrət qazanmışdı. Bu hadisələr ətrafında gedən şayiələr qitələrdə yaşayan insanlarda böyük maraq oyatdığı kimi, liman şəhərlərində yaşayanları da ayağa qaldırmış və xüsusilə dənizçilər arasında böyük bir həyəcan doğurmuşdu. Tacirlər, gəmi sahibkarları, kapitanlar, şkiperlər, hərbi dənizçilər və nəhayət, hətta Köhnə və Yeni Dünyanın bir sıra dövlətləri bu fenomen[1] ilə son dərəcə maraqlanmışdılar.

Həmin il bir neçə gəmi dənizdə dəfələrlə iyəbənzər, uzun, ölçüsü və hərəkət sürəti etibarilə balinadan çox-çox üstün olan, bəzən də ətrafa parlaq işıq saçan qəribə bir şeyə təsadüf etmişdi.

Bu təsadüflər haqqında müxtəlif gəmilərin gəmi kitablarına düşmüş məlumat bu qəribə şeyin və ya məxluqun xarici görünüşünü eyni cür təsvir edir və bir ağızdan onun eşidilməmiş sürətə malik olduğunu qeyd edirdi. Əgər bu, balina idisə, o halda bu heyvan öz ölçüsü ilə elmə indiyə qədər məlum olan bütün balina növlərinə üstün gəlirdi və o vaxtın məşhur alimlərindən heç biri: nə Küve[2], nə Laseped, nə Dyumeril və nə də Katrfaj öz gözləri ilə görməyincə bu böyüklükdə heyvanın ola bilməsi imkanına inanmazdılar.

---

[1] Fenomen – Qeyri-adi nadir hadisə.

[2] Küve, Laseped, Dyumeril, Katrfaj – Təbiətşünas alimlər

[3] Bir ingilis futu – 30.4 santimetr

Gözü ilə görən bəziləri onu iki yüz ingilis futuna[3] bərabər hesab etməklə onun boyunu xeyli kiçildir, başqaları isə uzunluğunu üç, enini isə bir mil qəbul etməklə onu açıqdan-açığa şişirdirdilər. Belə zidd fikirlərə baxmayaraq, bu saysız-hesabsız məlumata yekun vurulacaq olarsa, hər halda, çəkinmədən demək olardı ki, bu məxluq (əgər o, doğrudan da, varsa) heyvanat mütəxəssislərinə indiyə qədər bəlli olan heyvanların hamısından müqayisə edilməyəcək dərəcədə böyük idi. Eyni zamanda onun varlığına şübhə etmək də olmazdı. Çünki bu, mübahisəyə ehtiyacı olmayan bir həqiqət idi.

Ümumiyyətlə, insanlarda belə tapmaca xasiyyətli hadisələrə qapılmaq meyli olduğundan bu şayiələrin bütün dünyanı sonsuz bir həyəcana salması təbii bir hal idi.

Doğrudan da, 1866-cı ilin 20 iyulunda "Kəlkəttə gəmi cəmiyyəti"nə aid olan "Qubernator Xinginson" gəmisi Avstraliyanın şərq sahilləri yaxınlığında bu hərəkət edən qayaya rast gəlmişdi.

Əvvəlcə kapitan Bekker xəritədə qeyd edilməmiş yeni bir qaya tapdığını qət etmiş və hətta onun coğrafi koordinatlarının[1] təyini işinə başlamaq istəyirmiş ki, birdən bu qəribə şeyin içərisindən iki su sütunu fışıltı ilə tullanaraq, yüz əlli fut qədər yuxarıya qalxmağa başlamışdı. Əgər bu, doğrudan da, müəyyən bir sualtı qeyzer[2] püskürməsi deyildisə, demək ki, "Qubernator Xinginson" burun dəliklərindən buxarla qarışıq su fəvvarələri tullayan naməlum bir dəniz məməlisinə rast gəlmişdi.

1866-cı ilin 23 iyulunda Vest-Hind və Böyük okean gəmi cəmiyyətinə aid olan "Xristofor Kolumb" gəmisinin göyərtəsindən də Böyük okeanda bu qəribə şeyi görə bildilər. Yalnız üççə günlük bir müddət ərzində bir-birindən yeddi yüz dəniz mili məsafədə

---

[1] Koordinatlar (coğrafiya) Yer kürəsi üzərində olan nöqtənin vəziyyətini təyin edən en və uzunluq dairələri

[2] Qeyzer – 25 dəqiqədən 3 saata qədər fasiləsi olan vaxtlar içərisində fəvvarə atan isti su və buxar qaynaqları

aralı olan iki nöqtədə “Qubernator Xinginson” və “Xristofor Kolumb” gəmiləri ilə baş vermiş bu təsadüf bu qəribə və ecazkar balinanın öz yerini dəyişdirməkdə nə qədər böyük bir sürətə malik olduğunu açıq və aydın göstərirdi.

On beş gün sonra Amerika ilə Avropa arasında Atlantik okeanında bir-birinə rast gələn Milli kompaniyanın “Helveçiya” və “Royal Meyl” kompaniyasının “Xanaan” gəmiləri də Qrinviçdən 42° 15’ şimal en dairəsində və 60° 35’ şərq uzunluq dairəsində bu nəhəngə rast gəlmişdi. Hər iki gəminin kapitanı bu məməlinin uzunluğunu ən azı 350 ingilis futu olaraq təyin etmişdi. Hər biri forştevendən axterştevenə[1] qədər 325 fut olan “Xanaan” və “Helvediya” gəmiləri bundan kiçik idi. Halbuki Aleut adaları ətrafında təsadüf edilən balinaların ən böyükləri yüz on beş futdan uzun olmurdular.

Bu xəbərlər və “Pereyra” transatlantik gəmilərinin də bu nəhəngi görməsi, “Etna” gəmisinin ona rast gəlməsi, nəhayət, fransız freqatı “Normandiya” zabitlərinin tərtib etmiş olduqları protokol və “Lord Klayd” gəmisinin komandiri Fiç-Cemsin İngiltərə admirallığına təqdim etdiyi müfəssəl hesabat kimi bir-birini təqib edən məlumatlar əfkari-ümumidə dərin bir həyəcan yaratmışdı. Bəzi ölkələrdə bu hadisəyə yalnız gülürdülər. Lakin İngiltərə, Amerika və Almaniya kimi ciddi və qüvvətli dövlətlər bu məsələ ilə çox ciddi maraqlanırdı.

Bütün paytaxtlarda nəhəng məsələsi söhbətlərin ən dəbli mövzusunu təşkil edirdi. Onun haqqında estradalarda nəğmələr oxunur, məcmuələrdə karikaturalar dərc edilir, teatrlarda tamaşalar verilirdi. Bütün qəzetlərdə həqiqi müdhiş ağ polyar balinasından tutmuş guya öz qolları ilə 500 tonluq gəmiləri tutub dənizin dibinə çəkəcək qədər qüvvətə malik fantastik oktapodlar kimi nəhəng məxluqların şəkilləri çəkilirdi. Arxivlərdən dəniz nəhənglərinin varlığını imkan daxilində görən qədim Aristotel,

---

[1] Forşteven – Gəminin kil hissəsinin mabədi olub burnun ucuna dəyilir. Axterşteven isə kilin ardı olub gəminin dal ucunu təşkil edir.